

# "Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir"

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bir sıra çıxışlarında Türkiyə və Azərbaycan xalqları arasındakı tarixi birlikdən, ayrılmaz dostluq və qardaşlıq əlaqələrindən bəhs etmiş, bununla bağlı tarixi və ibrətamiz fikirlər səsləndirmişdir. Sadəcə, Azərbaycan–Türkiyə əlaqələrinin dünəni deyil, həm də bugünü və gələcəyi baxımından son dərəcə önəmli olan həmin fikirlər, bu gün də öz aktuallığı, səmimiliyi və təkrarsızlığı ilə diqqət çəkir. Ulu öndərin dediyi kimi: "Türkiyədən daim yardım almışıq, kömək görmüşük".**

Heydər Əliyev hesab edirdi ki, Azərbaycan və Türkiyəni bir-biri üçün qiymətli edən, onların eyni dəyərlərə malik olması, eyni soya mənsub olması, eyni tarix, dil və dinə sahib olması idi. Ulu öndər hesab edirdi ki, məhz bu amillər Azərbaycan və Türkiyənin əbədi birliyini zəruri edir, onları eyni yolun yolçularına, eyni taleyin sahiblərinə çevirir.

Hər iki xalqın eyni adət-ənənələrə malik olması, eyni mənəvi dəyərlərə yiyələnməsi də Heydər Əliyevə görə, son dərəcə mühüm amillər idi.

Məhz bu amillər tarixin ən çətin anlarında Azərbaycan – Türkiyə həmrəyliyini təmin edib, hər iki xalq ağlasığmaz çətinliklər və məhrumiyyətlər zamanı belə bir-birinə dəstəyin optimal yolunu axtarıb tapıb. Azərbaycan və Türkiyə xalqlarının əsrlər boyu bir-birinin yanında yer aldığını, bir-birinə dəstək olduğunu, alan Heydər Əliyev hesab edirdi ki, hər iki xalq bundan sonra da daim bir yerdə olacaq, üzləşdiyi məhrumiyyətlərə birlikdə meydan oxuyacaq.

Ulu öndər 1994-cü il fevralın 9-da Türkiyə Böyük Millət Məclisindəki çıxışında bu barədə deyib: "Türkiyə ilə Azərbaycan arasında əlaqələrin böyük tarixi var. Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən ayırmağa çox çalışsalar da, buna müvəffəq olmamışlar. Odur ki, bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir".

Ulu öndər Türkiyənin 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinə göstərdiyi tarixi dəstəyi də daim yüksək qiymətləndirir, bunu Azərbaycanın dövlətçilik tarixinə, xalqımızın azadlıq arzusuna verdiyi həyati dəstək kimi səciyyələndirirdi. Hesab edirdi ki, məhz Türkiyənin 1918-ci ildə Azərbaycana hərbi müstəvidə göstərdiyi yardım Cümhuriyyət yolundakı çoxsaylı maneələri aradan qaldırmaqla yanaşı, Azərbaycan xalqının təhlükəsizliyini təmin edib, ermənilərin xalqımıza qarşı həyata keçirdiyi soyqırımının daha da genişlənməsinin qarşısını alıb: "Həmin dövrdə, yəni xalqımız ilk demokratik dövlət qurduğu dövrdə Türkiyə Azərbaycanla bir olmuş, bərabər olmuş, Azərbaycana çox böyük kömək və yardım etmişdir. Bunu Azərbaycan xalqı heç vaxt unutmayıb və unutmayacaqdır. O vaxtlar xalqımız neçə-neçə düşmənin təcavüzünə məruz qalmışdı. Türk Ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi və yardımı heç vaxt unutmayacaqdır".

Heydər Əliyev çıxışlarında Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Türkiyənin göstərdiyi dəstəyi yüksək qiymətləndirmişdir. Ümummilli lider Türkiyəyə həm də ona görə minnətdar idi ki, o, ölkəmizin müstəqilliyini tanımaqla yanaşı, bu müstəqilliyin digər dünya dövlətləri tərəfindən tanınmasına da köməklik göstərib. Türkiyənin ardınca digər dövlətlər də Azərbaycanın müstəqilliyini tanıdı.

Türkiyənin uğurlarına qəlbən sevinən ulu öndər onun üzləşdiyi çətinliklərdən narahatlıq duyur, bu problemlərin həllini, eyni zamanda, bütün türk xalqları üçün vacib sayırdı. Heydər Əliyev Türkiyəni bütün türk dünyasının təhlükəsizliyinin əsas qarantı hesab edirdi və buna görə də düşünürdü ki, Türkiyə nə qədər güclü və yenilməz olarsa, o zaman bütün türk dünyasının təhlükəsizliyi bir o qədər etibarlı şəkildə təmin olunar.

**Seymur ƏLİYEV**

Xalq qəzeti.- 2023- cü il.- 11 fevral.- S. 5.